

**Həcc ziyarətinə getmək hər bir müsəlmanın arzusu və müqəddəs borcudur. Bu borc, Allahın evini-Kəbəni ziyarət etmək uzun illər idi ki, fikrimdən çıxmırdı...**

# Mədinə müqəddəs şəhər

**Nəhayət, Allah-Təala Həcc ziyarəti dövründə mənim də bu ülvi arzumun yerinə yetməsi üçün imkan yaratdı. Bu ağır səfərdə tanınmış publisist şairə Fəridə Ləman, Şahidə xanım və Mahizər xanım yol yoldaşlarım idi. Biz Səudiyyə Ərəbistanına yola düşdük. Təyyarəmiz üç salondan ibarət idi. Bu, Həccə gedən 5-ci təyyarə idi ki, Səudiyyə Ərəbistanına istiqamətlənirdi.**

Biz - 326 nəfər zəvvar həmin təyyarə ilə Mədinə şəhərinə uçduq. Zəvvarların ümumi rəhbəri Seyid Əjdər İbrahimov idi. O, çox sakit, mehriban və mədəni bir ziyalı idi. Üz-gözündən nur yağırdı.

Həccə növbəti dəfə gedənlər çox sakit görünürdülər. Ancaq birinci dəfə gedənlər üçün bu ziyarət son dərəcə maraqlı idi. Bəziləri hətta həyəcanını gizlədə bilmir, qorxudan titrəyirdi.

Biz qəbul imtahanına gedən abituriyentlər kimi bir-birimizə suallar verir, edəcəyimiz duaları tez-tez təkrarlayırdıq. Bizdə bir az da xof yaranmışdı - qorxurduq ki, birdən hansısa ibadəti düzgün yerinə yetirə bilmərik. Rəhbərlərimiz bu həyəcanı hiss etdiklərindən növbə ilə bizə Həcc barədə məlumatlar verirdilər.

Biz Mədinə aeroportunda yerə enəndə saat 13-00 idi. Bizi mehribanlıqla qarşılayıb avtobuslara əyləşdirdilər. Aeroportdan çıxanda bizi isti hava dalğası vurdu. Zəvvarların çoxu Bakıda ikən Ərəbistan qiyafəsində idi - uzun xalat, altından paltara uyğun şalvar və hicab. Hicab qadınların başlarına bağladığı şal əvəzidir. Onu elə örtməliydik ki, altdan bir tük belə görünməsin. Ayaqlarımıza dabanı açıq ayaqqabı və corab geymişdik. Corab geyməyə də bilərdik. Üzümüz, əllərimiz və ayaqlarımızdan başqa hər yerimiz örtülü olmalı idi.

Zəvvarların yükünü hava limanının işçiləri təmənnasız avtobusların yük yerlərinə yığdılar. Bizi çamadan axtarışından, onu daşımaq qayğısından azad etdilər. Yüklərimiz yığılıb hazır olandan sonra zəvvar karvanı Mədinə şəhərinə yola düşdü.



**Mədinə - Əl Mədinə-əl Münəvvərə Səudiyyə Ərəbistanının ən böyük şəhərindən biridir. Ölkənin şimal-qərbində, vahədə yerləşir. İçərisindən keçən avtomobil yolları onu Ciddə və Məkkə şəhərlərilə birləşdirir. Əhalisinin sayı milyona yaxındır, əsas məşğuliyyətləri ticarətdir.**

622-ci ildə İslamın banisi Məhəmməd peyğəmbər (ə) Məkkədən Mədinəyə hicrət (köçmüş) etmiş və burada müsəlman icmasını yaratmışdır. Məhəmməd peyğəmbərin (ə) qəbri Mədinə şəhərindədir. VII əsrdən Mədinə müsəlmanların iki müqəddəs şəhərindən birinə çevrilmişdir. 632-656-cı illərdə Ərəb xilafətinin paytaxtı olub. X əsrdən Misirin, 1517-1919-cu illərdə Osmanlı imperiyasının tərkibində olmuşdur. 1919-1924-cü illərdə Hicaz əmirliyinin, 1924-cü ildən Səudiyyə Ərəbistanının tərkibindədir.



Şəhər dairəvi plan üzrə tikilmişdir. Dörd darvazası olmaqla daş divarla əhatə olunmuşdur. Sonralar şəhər genişləndirilmiş, darvazaların sayı səkkizə çatdırılmışdır. Mədinənin mərkəzində Həram adlı böyük məscid yerləşir. Məhəmməd peyğəmbərin (ə) yaşadığı evin yerində tikilmişdir. Hava limanından başlayaraq şəhərin mərkəzinə doğru uzanan geniş prospekt Xəlifə küçəsi adlanır. Mədinə deyilənə görə çox bərəkətli şəhərdir. Bu şəhərə gələn hər bir xarici vətəndaş evinə xeyir-bərəkətlə qayıdıb.

Mədinədə hündür binalarla yanaşı, ikimərtəbəli, gilmöhrədən və çiy kərpicdən tikilmiş alçaq yaşayış evləri də var. İstər köhnə, istərsə də yeni tikilmiş binaların heç birində, hətta otel binalarında açıq balkon yoxdur. Bəzi binalarda günəşin istisindən qorunmaq üçün dar, şəbəkəli balkonlar var.

Biz, Mədinənin mərkəzində yerləşən "Movenpick" otelinin "Al-Madina" hissəsində yerləşdik. Bu otelin çıxış qapısı (ə) Həramın həyətinə açılırdı. Odur ki, günün istənilən vaxtı Hərama düşmək, oranı ziyarət etmək, namaz qılmaq bizə asan olurdu.

Noyabrın 27-də Mədinə şəhərinin müqəddəs yerlərini ziyarətə getdik. Birinci getdiyimiz yer Məhəmməd peyğəmbərin (ə) əmisi Həzrəti Həmzənin kafirlərlə vuruşduğu Uhud dağı oldu.

Uhud dağı, biz təsəvvür etdiyimiz qədər yüksək deyildi, aşınmış təpələrdən, torpağı yumşaq çınqıl və qumdan ibarət idi. Zəvvarların sayı-hesabı yox idi. Uzaqdan insanlar ağ geyimlərdə səhralara səpələnmiş ağ çiçəklərə bənzəyirdi. Həzrəti Həmzə "Seyid Şühada" məhəlləsi adlanan yerdə həlak olub. Həzrəti Həmzənin məzarı adi sinə daşından ibarətdir. Uhud dağı indi müqəddəs tarixi abidə kimi qorunur. Bildiyimiz kimi, Səudiyyə Ərəbistanı indi vəhabilik məzhəbinə xidmət edir. Onlar müqəddəs yerlərin, ziyarətgahların olmasını, oranın ziyarət edilməsini, abadlaşdırılmasını qəbul etmirlər. Vəhabilər ziyarəti küfr bilirlər.





Fürsət düşəndə ziyarətgahları, dini abidələri dağıdırlar. Məhəmməd peyğəmbərə (ə) inamları yoxdur, salavatı qəbul etmirlər. Onlar tək Allahı qəbul edirlər. Yeri gəlmişkən qeyd edim ki, Osmanlı imperiyası vaxtında tikilmiş, genişləndirilmiş, bərpa edilmiş Həramlar, Allahın beyti, müqəddəs Kəbə indi də Türkiyə hökumətinin nüfuzu altındadır. Türkiyənin nüfuzu orada çox böyükdür. Türkiyənin və İranın nüfuzu olmasaydı, bəlkə də, o Həramlar, məscidlər çoxdan yerlə-yeksan olmuşdu.

Oradan Məhəmməd peyğəmbərin (ə) ilk dəfə namaz qıldığı məscidə gəldik. Bu məscid "İki qibləli məscid" adlanır. Məhəmməd peyğəmbər namaz qılan vaxt yəhudilər ona gülərək deyiblər ki, sizin qibləniz yoxdur. O zaman qüllələrdən biri Qüdsə, digəri Məkkəyə baxırmış. Allah Məhəmməd peyğəmbərə (ə) buyurub ki, Məkkəni özünə qibləgah seç. Elə o vaxtdan da müqəddəs Məkkə şəhəri bütün dünya müsəlmanlarının qibləgahı olur. Bu məscidə "Qibləteyn məscidi" də deyirlər.

Burada da Zəmzəm suyu var. Məscidin həyətində "Quran"ın ilk surəsi olan "Ələq" surəsinin mərmərdən yonulmuş abidəsi qoyulmuşdur. Deyilənə görə, Məhəmməd peyğəmbərin (ə) qızı Fatimeyi-Zəhranın bağı İki qibləli məscidin yanında yerləşirmiş...

Sonra biz gəlib Quba adlanan məscidə yetişdik. Müsəlmanlar ilk məscidi əvvəlcə kiçik bir kənd olan Qubada inşa ediblər. Məhəmməd peyğəmbər (ə) məscidin tikintisində digər müsəlmanlarla bərabər çalışmışdı. Məscidi tikmək üçün yeri qazanda içindən bir sandıq tapırlar. Sandıq möhürlü imiş. Möhürü qoparıb içindən bir kağız tapırlar. Başlıqda əvvəlcə "Bismilləhirrəhmanirrəhim" kəlməsi yazılıbmış. Sonra isə Məhəmməd peyğəmbərin (ə) Yəsribə-Mədinəyə gələcəyi bildirilirmiş. Möcüzə burasında idi ki, mücrüdəki kağız müsəlmanlığın yaranmasından çox-çox əvvəl yazılmışdı. Hz. Məhəmməd peyğəmbər (ə) Qubada iki həftə qalmış, oradan çıxarkən ilk dəfə camaatla birgə "Cümə namazı" qılmışdır. Peyğəmbərin xurma bağları da bu məscidin həyətində olub.



**Sonuncu peyğəmbərimiz Məhəmmədin (ə) qəbri Mədinə şəhərində - Həramdadır. Ora qadınları buraxmırlar. Ona görə də mən qəbri içəridən görə bilmədim. Tanış kişi zəvvarlardan qəbrin görünüşünü soruşdum. Dedilər ki, qəbrin üstündə ucaldılmış günbəzin içərisi qızılı boya ilə rənglənib. Qəbrin ətrafı isə şəbəkəli hasardan ibarətdir. Məhəmməd peyğəmbərin (ə) sinə və başdaşı yoxdur.**

Həramın Bəqi qəbristanlığına tərəf olan hissəsində, məscidin axırında Məhəmməd peyğəmbərin (ə)

günbəzi ucaldılıb. Günbəz yaşıl rənglə rənglənib. Günbəzin yanında bir minarə də ucaldıblar. Ümumiyyətlə götürdükdə Həram dördbucaqlı şəkildə geniş bir sahəni tutur. Həramın hər küncündə balaca və böyük minarələr ucaldılıb. Minarələrdən əzan verirlər.

Həramın çox sayda qapıları var. Məscidlərində doqquz minarə, Məhəmməd peyğəmbərə (ə) aid bir minarə və yaşıl rəngli bir günbəz var. Biz qadın zəvvarlar peyğəmbərin (ə) qəbrini görə bilməsək də günbəzin önündə şəkillər çəkdirdik. Deyilənə görə, Məhəmməd peyğəmbərin (ə) qızı Fatimeyi-Zəhranın qəbri peyğəmbərin (ə) qəbrinin aşağısında, onun ayaqları altında olub. Fatimeyi-Zəhra atası xəstə olanda ona qulluq edirmiş.

Belə rəvayət edirlər ki, peyğəmbər (ə) bir gün qızını yanına çağırıb qulağına nə isə deyir. Qızı başlayır ağlamağa. Peyğəmbər (ə) yenə nə isə deyir. Qızı bu dəfə gülür. Fatimeyi-Zəhradan soruşanda ki, peyğəmbər sənə nə dedi ki, ağladın, sonra da güldün? Fatimeyi-Zəhra cavab verib deyir: "Peyğəmbər (ə) əvvəlcə mənə dedi ki, qızım, ölümüm yaxınlaşıb, mən öləcəyəm. Onda mən ağladım. Sonra isə dedi ki, mənim yanıma, axirət dünyasına birinci sən gələcəksən. İlk mehmanım sən olacaqsan. Bax onda sevindiyimdən güldüm".

Doğrudan da elə olur. Dörd uşaq anası, on səkkiz yaşlı Fatimeyi-Zəhra atasının ölümündən altı ay sonra dünyasını dəyişir. Deyilənlərə görə, Fatimeyi-Zəhranı atasından sonra kafirlər çox incitmişlər. Hətta qabırğalarını da sındırmışlar.

Biz Məhəmməd peyğəmbərin (ə) ruhuna dualar oxuyandan sonra yaxınlıqdakı Bəqi qəbristanlığını ziyarətə getdik. Bura da xanım zəvvarların daxil olması yasaq idi. Böyük, qumlu, kənarları hasarlanmış Bəqi qəbristanlığında çoxlu sayda qəbir vardı. İmamlarımızdan dördü: I, IV, V, VI imam - imam Həsən, İmam Zeynalabdin, imam Məhəmməd Cəfər və imam Əli (imam Həsənin qardaşı oğlu) bu qəbristanlıqda basdırılıb.

Bizi içəri buraxmadıqlarına görə oraya pilləkanların üstünə çıxaraq baxdıq. Qəbristanlıqla aramız 50-60 metr olardı. Qəbirlərin ancaq balaca ölçüdə çay daşlarına oxşayan qara rəngli baş daşları vardı. Bizim gördüyümüz və adət etdiyimiz təmtəraqlı, bəzəkli qəbirləri, ümumiyyətlə, Ərəbistanda görmədik. Vəhabilər qəbristanlıqları, pirləri, ocaqları abadlaşdırmağa, genişləndirməyə qoymurlar. Deyilənə görə, bu qəbristanlığı da partladıblar. Qəbirlərin az hissəsi qalıb. Qəbirlər olan hissəni vəhabilər sıra ilə düzülərək əhatəyə alıblar ki, zəvvarlar ora yaxınlaşa bilməsinlər. Biz orada olan vaxtı iranlılarla vəhabilər arasında bir balaca münaqişə düşdü. İranlılar orada basdırılmış imamların qəbrinə yaxınlaşmaq istədikdə vəhabilər qoymadılar. Qadınlar arasında olan qara çarşablı iranlılar hasardan yapışaraq mərsiyə-ağı deyib ağlaşırdılar. Ağlaşmaq adəti ancaq İran şiələrinə aiddir.

**Mədinənin müqəddəs ziyarətgahlarını ziyarət edib qurtardıqdan sonra Məkkə şəhərinə - Həcc ziyarətinə hazırlaşmağa başladıq və noyabrın 29-da saat 16.30-da Mədinənin "A1-Madina" mehmanxanasından Məkkə şəhərinə yola düşdük...**

**● Salatın ƏHMƏDLİ**

